# Güclü ordu suverenliyin və ərazi bütövlüyünün qarantıdır

**Azərbaycan cəmi 44 gün davam edən hərbi əməliyyatlar zamanı torpaqlarımızın otuzillik işğalına son qoymaqla iki əsrə qədər davam edən Qarabağ münaqişəsinin həllinə nail oldu. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev isə əsrlər boyu hissə-hissə itirilən torpaqlarımızı geri qaytararaq regionda yeni siyasi reallığın əsasını qoyan Lider kimi adını ən müasir tariximizə yazdı. Azərbaycan xalqı bu gün də sözlə ifadə edilməsi mümkün olmayan misilsiz qələbənin sevincini, yüksək fəxarət duyğuları ilə, hədsiz fərəh, qürur hissləri ilə yaşayır. Şanlı və tarixi qələbəmiz Azərbaycan xalqında milli oyanışa, dirçəlişə, birliyə səbəb oldu.**

İkinci Qarabağ müharibəsi Azərbaycanın tarixinə qızıl hərflərlə yazıldı, dünya hərb tarixində isə yeni səhifə açdı. Torpaqlarımız düşmən tapdağından azad oldu, haqq-ədalət bərpa edildi.

Uğurlu diplomatiya, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, həmçinin respublikanın maliyyə imkanlarının genişləndirilməsi, iqtisadi müstəqilliyin təmin olunması və digər istiqamətlərdə aparılan məqsədyönlü siyasət ölkəmizin Vətən müharibəsində şanlı qələbəsini təmin edən əsas amillərdəndir. Vətən müharibəsində ordumuzun parlaq qələbəsi ilə tarixi ədalətin - Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması həm də ölkə Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin dövlət başçısı kimi fəaliyyət göstərdiyi illər ərzində həyata keçirdiyi siyasətin məntiqi nəticəsi idi.

Azərbaycanda ordu quruculuğu prosesinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlı şərəfli tarixi vardır. Hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ulu öndər Bakıda Azərbaycanın milli hərb sənəti tarixinə adı qızıl hərflərlə yazılmış general Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaratmaqla ölkəmizdə hərbi sahənin inkişafında yeni mərhələnin əsasını qoymuşdur. 1993-cü ildə ölkənin ağır dönəmində xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələndə Heydər Əliyevin ilk işi qanunsuz silahlı birləşmələrin fəaliyyətinə son qoymaq və ordunun idarəçiliyini vahid mərkəzdə birləşdirmək oldu. Məhz ulu öndərin yorulmaz fəaliyyəti, dövlətçilik təfəkkürü, siyasi uzaqgörənliyi, təşkilatçılıq qabiliyyətinin məntiqi və real nəticəsi müasir Azərbaycan Ordusunun əsasını qoydu. Beləliklə, sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu da müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən birinə çevrildi.

Ulu öndər Heydər Əliyevdən sonra bu missiyanı onun siyasi varisi, Prezident cənab İlham Əliyev uğurla davam etdirdi. Cənab İlham Əliyevin rəhbərliyi ilə hərbi arsenal ən müasir silahlarla təchiz olundu, hərbi sahədə əməkdaşlıq əlaqələri genişləndirildi. Ölkə başçımızın bu sahəyə xüsusi həssaslıqla yanaşmasının nəticəsidir ki, Azərbaycan qüdrətli orduya sahib olmuşdur. Odur ki, bu gün Azərbaycan Ordusu dünyada 50 ən güclü ordudan biridir.

Azərbaycan ordusunun müharibədə nümayiş etdirdiyi rəşadətini bütün dünya ictimaiyyəti gördü. Bu zəfərdə ordumuzun yüksək peşəkarlığı, müasir silahlarla təmin edilməsi və ruh yüksəkliyi də öz sözünü dedi. Düşmən ordusunun döyüşlərdəki qorxaqlığı və xaosu Azərbaycan əsgərinin qəhrəmanlığından xəbər verirdi. Ordumuzun sarsıdıcı zərbələrindən qorxuya düşən düşmən geriyə çəkilərək bütün silah-sursatını atıb qaçmışdır.

Şanlı Ordumuzun düşmənin yüzlərlə hərbi texnikasını, silah-sursatını, maddi-texniki təminatını ələ keçirməsi nəticəsində paytaxtda 5 hektar ərazidə qənimətlərdən ibarət park yaradılmışdır. Bu park müharibənin miqyasının canlı göstəricisidir. Erməni hərbi texnikalarının nömrələrindən ibarət kompozisiyada yazılan "Qarabağ Azərbaycandır!" şüarı dünyaya şanlı qalib ordunun zəfər səsini çatdırır. Eyni zamanda, erməni vəhşiliyi, dinc əhaliyə qarşı edilən hərbi cinayətlər real olaraq dünyaya nümayiş etdirilir. Bu parka səyahət edən hər kəs ordumuzun və əsgərlərimizin qətiyyətinin, iradəsinin və məğlubedilməzliyinin şahidi olur.

Ordumuzun döyüş taktikası bu gün dünyanın aparıcı dövlətlərinin ordularında yaxından öyrənilir. Hazırda Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Azərbaycan vətəndaşları Silahlı Qüvvələrimizdə baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərini ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda da görüb. Ölkəmizin hərbi qüdrətinin nümayişi olan belə paradlarda xalqımız və beynəlxalq ictimaiyyət Azərbaycanın mükəmməl hərbi gücə malik olduğuna şahidlik edib. Təsdiq olunub ki, Azərbaycan Ordusu arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirir. Ən fərəhlisi odur ki, bu gün dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları strateji silahlar Azərbaycanda var. Silahlı Qüvvələrimiz müasir texnika ilə təchiz edilmiş, Vətənin müdafiəsinə daim hazır vəziyyətdə olan yüksək nizam-intizama malik güclü ordudur. Güclü ordu isə güclü dövlət deməkdir.

Ötən ilin dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsində hərbi hissənin açılışında demişdir: ...Bax, bu gün Hadrutda bu hərbi hissədə yeni hərbi birləşmənin nümayəndələri, komando qüvvələri yerləşir. Komando Briqadasının yaradılması bizim üçün yenilikdir. Bir yox, iki yox, bir çox Komando briqadaları artıq Azərbaycanda yaradılır və bu briqadalar istənilən hərbi vəzifəni icra etməyə qadir olacaqlar. Yüksək təlim keçmiş, yüksək iradə nümayiş etdirmiş və Vətən uğrunda özlərini fəda etməyə hazır olan övladlarımız bu briqadalarda xidmət edəcəklər. Bu, bizim ordumuzun gücünü böyük dərəcədə artıracaq. Bir daha demək istəyirəm ki, belə briqadalar çox olacaq, minlərlə hərbçimiz bu briqadalarda xidmət edəcəklər. Beləliklə, Azərbaycan Ordusu bundan sonra da öz peşəkarlığını və yüksək mənəvi ruhunu qoruyacaqdır".

Azərbaycan Ordusunun uğurları, həmçinin nüfuzlu beynəlxalq reytinq agentliklərinin hesabatlarında da yüksək qiymətləndirilir. Respublikamızda müasir ordu quruculuğu prosesində yeni mərhələ başlayıb. Ordu quruculuğu istiqamətində sistemli islahatlar həyata keçirilərkən həm respublikamızın iqtisadi-maliyyə imkanları, həm də qlobal miqyasda meydana çıxan yeni çağırışlar nəzərə alınır. Şübhəsiz ki, güclü ordu ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün qarantıdır.

Bu gün bütün dünyada sözümüz keçərli, başımız ucadır. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin Qalib sərkərdəsi, Azərbaycan Ordusu ən peşəkar və döyüş ruhlu Ordu, Azərbaycan xalqı isə ən qəhrəman xalq kimi tarixə qızıl hərflərlə yazılmışdır.

**M.MİRZƏ,**
**"Respublika".**

Respublika.- 20 fevral.- 2022- ci il.- S. 4.